## 1. Ümumi məlumat

**Tarix –** Küveytin qədim və orta əsrlər tarixi zəif tədqiq edilmişdir. Eramızdan əvvəl III minillikdə indiki Küveyt ərazisi Dilmun dövlətinin tərkibinə daxil idi. IV əsrin ikinci yarısında Küveyt Ləhmidilər ərəb dövlətinin tərkibinə daxil olur. VII əsrin əvvəllərindən Fars körfəzi bölgəsi, eləcə də Küveyt (o zaman Kureyn adlanırdı) ərazisində yerli ərəb tayfalarından olan şeyxlər hökmranlıq edirdi. XVII əsrin ortalarında Küveyt Osmanlı Türkiyəsinin nəzarəti altına keçir və Əl-Həsa, Cənubi İraq və Bəhreynlə birlikdə Bəsrə vilayətinin tərkibində Osmanlı imperiyasına qatılır. Vahid Küveyt əmirliyinin yaranması XVIII yüzilliyin ortalarına təsadüf edir. Ərazidə yaşayan qəbilə şeyxləri Sabah Bin Cabir Əl-Sabahı (1756-1762) özlərinin əmiri elan edirlər. 1760-cı ildə əmirliyin mərkəzi Əl-Küveyt şəhəri hasara alınır və dəniz ticarətinin mühüm mərkəzinə çevrilir. XIX əsrin birinci yarısında İngiltərə Körfəz bölgəsində yerli əhəmiyyətli müharibələr törədir. Nəticədə Böyük Britaniya 1899-cu ilin 23 yanvar tarixində Küveytlə gizli müqavilə imzalamaqla ölkə üzərində tam nəzarəti ələ keçirir. 1914-cü ilin noyabr ayında Küveyt Britaniya protektoratı altında müstəqil əmirlik elan edilir. Birinci dünya müharibəsi illərində Küveyt Böyük Britaniyanın tam nəzarəti altında olmuşdur. Nəcd əmirliyi ilə baş vermiş silahlı toqquşmalarda Küveyti müdafiə edən İngiltərə getdikcə onu özündən tam asılı vəziyyətə salaraq, əslində müstəmləkəsinə çevirmişdir. İkinci dünya müharibəsindən sonra Küveytdə milli azadlıq hərəkatının güclənməsi Böyük Britaniya ilə protektoratlıq barədə bağlanmış müqavilənin ləğv edilməsinə gətirib çıxarır. 1961-ci ilin 19 iyun tarixində Küveyt müstəqil dövlət elan olunur. 70-ci illərədək Küveytdə daxili siyasi vəziyyət qeyri-sabit olmuşdur. İraqın Küveytin müstəqilliyini tanımaması “Küveyt böhranı” adlanan problemin yaranmasına səbəb olmuşdur. Bundan istifadə edən Böyük Britaniya Küveytə hərbi qüvvə yeridir və Körfəz sahillərində yerləşən digər ərəb ölkələrinin daxili işlərinə müdaxilə etməyə başlayır. 1961-ci ilin avqustunda Ərəb Dövlətləri Liqasına üzv olan bir sıra dövlətlər Küveytin müstəqilliyini qorumaq məqsədi ilə oraya öz hərbi kontingentini göndərir. İngiltərə qüvvələri rəsmi surətdə Küveytdən geri çağırılır. 1963-cü ildə hərbi kontingent Küveyti tərk edir. İran-İraq müharibəsi zamanı Küveyt Bağdadı dəstəkləyir və buna görə də Küveytin neft tankerləri İran tərəfindən dəfələrlə hücumlara məruz qalır. Buna görə 1987-ci ildən etibarən ABŞ Hərbi Dəniz Donanması qüvvələri Küveyt tankerlərini Fars Körfəzində müşayiət edir. 1990-cı ilin iyul ayında Küveyt ilə İraq arasında münasibətlərdə gərginlik son həddə çatır. Gərginlik törədən səbəblərdən biri də dünya bazarında Küveyt tərəfindən neftin qiymətinin aşağı salınması və bununla da İraqın zəifləməsi iddiaları ilə əlaqələndirilir.
1990-cı ilin 02 avqust tarixində İraq Silahlı Qüvvələri Küveyt ərazisinə daxil olur və Əmir ölkənin Hakim Sülaləsinin digər üzvləri və ailəsi ilə birlikdə Səudiyyə Ərəbistanına qaçaraq Küveyt Dövlətinin mühacirətdə hökumətini yaradır. 1990-cı ilin 28 avqust tarixində İraq Küveyti özünün 19-cu əyaləti elan edir. Ölkə ərazisində davam edən hərbi həmlələr nəticəsində Küveytin ərazisi və sərvətləri İraq qoşunları tərəfindən dağıdılır və talan edilir. 1991-ci ilin 23 fevral tarixində ABŞ çoxmillətli qüvvələrlə

koalisiyada İraqa qarşı müharibəyə başlayır və fevralın 27-də İraq qoşunlarını Küveytdən çıxmağa məcbur edir, Küveytin müstəqilliyi bərpa olunur.
2006-cı ilin 4 aprel tarixində Küveytdə keçirilmiş bələdiyyə seçkilərində ilk dəfə olaraq, qadınların namizədliyi irəli sürülmüş və 2 qadın namizəd seçkidə iştirak etmişdir. Planlaşdırma Nazirliyinin kompüter proqramçısı vəzifəsində çalışan Cinan Buşəhri ikinci yeri tutaraq, Ramisiyyə Quberniyasından Bələdiyyə Şurasına üzv seçilmişdir.
2006-cı ilin 21 may tarixində hökumətlə Millət Məclis arasında yaranmış gərginlik ölkə başçısı Əmir Şeyx Sabah Əl-Əhməd Əl-Cəbir Əl-Sabah tərəfindən Parlamentin buraxılması ilə nəticələndi. ölkə başçısı Əmir Şeyx Sabah Əl-Əhməd Əl-Cəbir Əl-Sabah 2009-cu ilin martında Nazirlər Kabineti ilə Millət Məclisi arasında davam edən gərginlik nəticəsində Hökuməti buraxmağa və yeni seçkilərə getməyə məcbur oldu.
Küveytdə yeni parlament seçkiləri 2009-cu ilin 16 may tarixində keçirildi. Seçkinin nəticələrinə görə, Küveyt parlamentindəki 50 yerdən 29-nu köhnə, 21-ni isə yeni deputatlar tutdu. Körfəz ölkəsinin tarixində ilk dəfə olaraq parlamentə 4 qadın da seçildi. Ümumilikdə isə deputatlıq uğrunda mübarizə aparan 210 namizəddən 16-sı qadın idi. Parlamentə seçilən qadınlar 2005-ci ildə ölkənin ilk qadın Səhiyyə naziri olmuş Küveytdə azlıqda olan şiələrin nümayəndəsi Məsumə Mübarək, liberal fəallar Asil əl-Avadhi və Rola Dahti və universitet müəllimi Salva əl-Yassardır.
2010-il ərzində Küveyt Millət Məclisinin (Parlament) islahatçılar qrupunun Nazirlər kabinetinə qarşı iddiaları və xüsusilə də Baş nazir Nasir Əl-Məhəmməd Əl-Əhməd Əl-Cabir Əl-Sabahın parlament dinləmələrinə çağırılması tələbləri, ötən illərdə də olduğu kimi, Parlament – Hökumət münasibətlərinin gərginləşməsinə gətirib çıxarmışdır.

**Yerləşir:** Yaxın Şərqdə, Fars Körfəzi sahillərində
**Ərazi:** 17.820 kv. km.
**Quru sərhəd xətti:** 462 km. (İraqla- 240 km., Səudiyyə Ərəbistanı ilə- 222 km.)
**Sahil xətti:** 499 km.
**İqlim:** quru səhra iqlimi, çox isti yay və qısa, soyuq qış
**Təbii ehtiyatlar:** neft, balıq, krevet, təbii qaz
**Suvarılmış torpaq:** 130 kv. km. (2003-cü ilə olan məlumata görə)
**Ətraf mühitlə bağlı problemlər:** məhdud təbii şirin su ehtiyatları, hava və suyun çirklənməsi, səhralaşma
**Əhali:** 2.692.526 nəfər (2009-cu ilin iyul ayına olan məlumata görə)
**Əhalinin artım tempi:** 3.549 % (2009-cu ilə olan məlumata görə)
**Etnik qruplar:** küveytlilər- 45%, digər ərəblər- 35%, cənubi asiyalılar- 9%, iranlılar- 4%, digərləri- 7%
**Din:** müsəlmanlar- 85% (sünnilər- 70%, şiələr- 30%), xristianlar, induslar, parslar və digərləri- 15%
**Dil:** ərəb (dövlət dili), ingilis dili geniş yayılmışdır
**Dövlət quruluşu:** konstitusiyalı monarxiya
**Paytaxt:** Əl-Küveyt
**İnzibati bölgü:** 5 əyalət- Əl-Əhmədi, Əl-Fərvaniyyə, Əl-Asima, Əl-Cəhra, Həvalli

**Müstəqillik:** 19 iyun 1961-ci il (Böyük Britaniyanın əsarəti altından)
**Milli bayram:** Milli gün- 25 fevral (1950-ci il)
**Konstitusiya:** 1962-ci ilin 11 noyabr tarixində qəbul edilmişdir
**İcraedici orqan:** Əmir Şeyx Sabah Əl-Əhməd Əl-Cabir Əl-Sabah, 2006-cı ilin 24 yanvar tarixindən etibarən (varislik əsasında təyin olunur)
**hökumət başçısı:** Baş Nazir Şeyx Nasir Əl-Məhəmməd Əl-Əhməd Əl-Sabah, 2006-cı ilin 07 fevral tarixindən etibarən (28 may 2008-ci ildə dövlət başçısı tərəfindən yenidən təyin olunmuşdur)
**kabinet:** Nazirlər Şurası (Baş nazir tərəfindən təyin olunur və dövlət başçısı tərəfindən təsdiq olunur)
**Qanunverici orqan:** birpalatalı Milli Məclis (50 üzvü var, ümumxalq seçkiləri yolu ilə 4 il müddətinə seçilirlər)
**Məhkəmə orqanı:** Ali Apelyasiya Məhkəməsi
**Siyasi partiyalar:** yoxdur
**Beynəlxalq təşkilatlara üzvlük:** BMT, İKT, ÜTT (Ümumdünya Ticarət Təşkilatı) BVF (Beynəlxalq Valyuta Fondu), ƏDL, OPEK və sairə təşkilatların üzvüdür

## 2. İqtisadiyyat

Küveytin neft ehtiyatları dünya neft ehtiyatlarının 10%-ni təşkil edərək, 96.5 milyard bareldən ibarətdir. Neft ölkənin ümumi daxili məhsulunun təqribən 50%-ni təşkil edir. İxracatdan əldə edilən gəlirin 95-%-i və dövlət gəlirinin 80%-i neft sektorunun payına düşür.
Küveytin iqlimi ölkədə kənd təsərrüfatının inkişafını məhdudlaşdırır. Bununla əlaqədar ərzaq məhsulları demək olar ki, tam şəkildə idxal olunur.
**Ümumdaxili məhsul:** 150.2 milyard ABŞ dolları (2009-cu ilin məlumatına görə)
**İnkişaf tempi (ümumdaxili məhsul üzrə):** 8.1% (2008-ci ilin məlumatına görə)
**İqtisadi struktur (ümumdaxili məhsul üzrə):** kənd təsərrüfatı-0.3%, sənaye -52.2%, xidmət sektoru -47.5% (2008-ci ilin məlumatına görə)
**Sərmayə qoyuluşu:** ümumi daxili məhsulun 18.4%-i (2008-ci ilin məlumatına görə)
**İnflyasiya tempi (istehlak dəyəri):** 11.7% (2008-ci ilin məlumatına görə)
**İşçi qüvvəsi:** 2 mln 225 min nəfər (işçi qüvvəsinin 80%-ini qeyri-küveytlilər təşkil edir, 2008-ci ilə olan məlumata görə)
**İşsizlik göstəricisi:** 2.2% (2004-cü ilə olan məlumata görə)
**Büdcə:** gəlir-113.3 milyard ABŞ dolları, xərc-63.55 milyard ABŞ dolları (2008-ci ilin məlumatına görə)
**Sənaye:** neft sənayesi, neft-kimya sənayesi, sement istehsalı, gəmi tikintisi və təmiri, suyun şirinləşdirilməsi sənayesi, yeyinti sənayesi, tikinti materiallarının istehsalı
**Neft ehtiyatları:** 104 milyard barel (2008-ci ilin məlumatına görə)
**Neft istehsalı:** gündə 2.613 milyon barel (2008-ci ilin məlumatına görə)
**Təbii qaz ehtiyatları:** 1.586 trilyon kub.m. (2008-ci ilin məlumatına görə)

**Təbii qaz istehsalı:** 12.5 milyard kub.m. (2008-ci ilin məlumatına görə)
**Kənd təsərrüfatı məhsulları:** balıq
**İxracat:** 95.46 milyard ABŞ dolları (2008-ci ilin məlumatına görə)
**İxracat malları:** neft və neft məhsulları, gübrə
**Neft ixracı:** gündə 2.2 milyon barel (2007-ci ilə olan məlumata görə)
**İxracat tərəfdaşları:** Yaponiya-19.9%, Cənubi Koreya-17%, Tayvan-11.2%, Sinqapur-9.9%, ABŞ-8.4%, Hollandiya-4.8%, Çin-4.4% (2008-ci ilin məlumatına görə)
**İdxalat:** 26.54 milyard ABŞ dolları (2008-ci ilin məlumatına görə)
**İdxalat malları:** ərzaq, tikinti materialları, maşın və avtomobil hissələri, geyim
**İdxalat tərəfdaşları:** ABŞ-12.7%, Yaponiya-8.5%, Almaniya-7.3%, Çin-6.8%, Cənubi Koreya-6.6%, Səudiyyə Ərəbistanı-6.2%, Böyük Britaniya-4.6%, İtaliya- 5.8% (2007-ci ilə olan məlumata görə)
**Xarici borc:** 38.82 milyard ABŞ dolları (2008-ci ilin məlumatına görə)
**Pul vahidi:** Küveyt dinarı (l ABŞ dolları=0.2679 Küveyt dinarı, 2008-ci ilin məlumatına görə)

## 3. Xarici siyasət

Küveyt Dövləti 19 iyun 1961-ci ildə müstəqilliyini əldə etdikdən sonra mötədil və müvazinətli xarici siyasət kursu həyata keçirir. Küveyt öz xarici siyasət kursunun 4 əsas prinsipini aşağıdakı kimi müəyyən etmişdir:

**1.** Beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsi istiqamətində dünya ictimaiyyətinin səylərini dəstəkləmək;
**2.** Beynəlxalq qanunvericiliyə riayət etmək;
**3.** Beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq etmək;
**4.** Bəşəriyyətin inkişafı və iqtisadi tərəqqinin əldə olunması istiqamətində beynəlxalq ictimaiyyətlə əməkdaşlıq etmək.

Küveyt qeyd olunan məqsədləri rəhbər tutaraq, xarici siyasət kursunu 4 əsas istiqamət üzrə həyata keçirir:

1. Körfəz Əməkdaşlıq Şurasına üzv olan ərəb dövlətləri ilə regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsi və müştərək iqtisadi tərəqqinin əldə edilməsi naminə əməkdaşlıq;
2. Yaxın Şərq və Ərəb-İsrail münaqişəsinin beynəlxalq qanunvericiliyin qərar və qətnamələri, o cümlədən Ərəb Sülh Təşəbbüsünə əsasən müstəqil Fələstin Dövlətinin yaradılması ilə həll edilməsi, habelə Yaxın Şərq regionunun kütləvi qırğın silahlarından təmizlənməsi və bu istiqamətdə digər ərəb dövlətləri ilə əməkdaşlıq və koordinasiyanın həyata keçirilməsi;
3. Bəşəriyyətin sülh və təhlükəsizlik şəraitində yaşaması naminə müxtəlif beynəlxalq təşkilatların səylərinin dəstəklənməsi;
4. Küveyt xarici siyasət kursunun iqtisadi və maliyyə istiqamətinin özəyini Küveyt

İqtisadi İnkişaf Fondu təşkil edir. Belə ki, Küveyt Dövləti bu fond vasitəsilə dünyanın bir çox bölgələrində iqtisadiyyatı zəif olan və maliyyə dəstəyinə ehtiyacı olan dövlətlərə müxtəlif sosial-iqtisadi inkişaf proqramları həyata keçirməklə yardım göstərir.

## 4. İkitərəfli münasibətlər

**1994-cü ilin 10 oktyabr tarixində** Azərbaycan Respublikası ilə Küveyt Dövləti arasında diplomatik əlaqələrin yaradılması haqqında Protokol imzalanmışdır. Ölkələrimiz arasında əməkdaşlıq BMT və İKT çərçivəsində inkişaf etdirilmişdir. Küveyt Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi ilə bağlı BMT və İKT çərçivəsində qəbul edilmiş bütün qərarları birmənalı şəkildə dəstəkləmişdir. Lakin 2004-cü ilin 29 oktyabr tarixində Azərbaycanın təşəbbüsü ilə BMT-nin Baş Assambleyasının 59-cu sessiyasının gündəliyinə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" barədə əlavə bəndin salınmasına dair səsvermədə Küveyt bitərəf mövqe nümayiş etdirmişdir.

**1995-ci ilin 28 may tarixində** Küveyt Milli Məclisi Küveyt və Azərbaycan Parlamentləri arasında 4 nəfərdən ibarət Dostluq Qrupunun yaradılması haqqında qərar qəbul etmiş, 1997-ci ilin 06 may tarixində isə Küveyt Milli Məclisinin Sədri Şəridah Əl-Müşərci Azərbaycan Milli Məclisinin Sədrinə məktub göndərərək, Əhməd Məhəmməd Nassarın sədrliyi ilə 6 nəfərdən ibarət yeni Küveyt-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun yaradılması haqqında qərarın qəbul edilməsi barədə məlumat vermişdir.

**1995-ci ilin 20-22 sentyabr tarixlərində** Azərbaycan Milli Məclisinin Sədrinin dəvətinə əsasən Küveyt Milli Məclisinin Sədr müavini Saleh Yusif Əl-Fədallahın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur. Nümayəndə heyəti Respublika rəhbərliyi ilə bir sıra görüşlər keçirmiş, hər iki tərəfi maraqlandıran məsələlər ətrafında müzakirələr aparılmışdır.

**1996-cı ilin may ayında** Azərbaycan Milli Məclisinin Sədrinin başçılıq etdiyi nümayəndə heyəti Küveytdə rəsmi səfərdə olmuş, Küveytin Əmiri, Milli Məclisinin Sədri və Xarici İşlər Naziri (Küveyt Baş Nazirinin birinci müavini) ilə danışıqlar aparmışdır.

**1996-cı ilin dekabr ayında** Məhəmməd Əl-Matadinin başçılıq etdiyi Küveyt Sosial İşlər və Əmək Nazirliyinin nümayəndə heyəti Azərbaycanda rəsmi səfərdə olmuşdur.

Azərbaycanda məskunlaşmış qaçqın və məcburi köçkünlərə humanitar yardımın göstərilməsi sahəsində həm Küveyt Dövləti, həm də Küveytin humanitar və xeyriyyə təşkilatları, o cümlədən Küveytin Asiya Müsəlmanları Komitəsi mühüm yer tutur.

Küveytin Asiya Müsəlmanları Komitəsi və Səudiyyə Ərəbistanının Beynəlxalq İslam Nicat Təşkilatının təşəbbüsünə əsasən, Azərbaycanın mərhum Prezidenti H.Əliyevin himayəsi altında **1996-cı ilin 16-17 oktyabr tarixlərində** Bakı şəhərində bir sıra müsəlman ölkələrinin xeyriyyə cəmiyyətlərinin və nüfuzlu şəxsiyyətlərinin iştirakı ilə Azərbaycanda qaçqın və məcburi köçkünlərin problemlərinə dair beynəlxalq konfrans keçirilmişdir. Konfransda bütün ərəb və islam dövlətlərinə Azərbaycan qaçqın və

məcburi köçkünlərinə humanitar yardım göstərilməsi ilə əlaqədar müraciət qəbul edilmişdir.
**1998-ci ilin 27 yanvar tarixində** Küveytin Ankaradakı Səfiri eyni zamanda Azərbaycanda akkreditə olunmuşdur.
**2001-ci ilin 26-28 sentyabr tarixlərində** Küveyt Milli Məclisində yaradılmış Küveyt-Azərbaycan Parlamentlərarası Dostluq Qrupu Azərbaycanda səfərdə olmuş, Respublika rəhbərliyi ilə bir sıra görüşlər keçirmiş, hər iki tərəfi maraqlandıran məsələlər ətrafında müzakirələr aparmışdır.
Azərbaycan Prezidentinin **01 oktyabr 2002-ci il tarixli, 367-IIQ saylı Qanunu** ilə Azərbaycanın Küveytdə (Əl-Küveyt şəhərində) Səfirliyi təsis edilmişdir.
**2003-cü ilin 03 iyun tarixində** İraqda koalisiya qüvvələrinin tərkibində iştirak etmək məqsədilə Azərbaycanla Küveyt arasında Azərbaycan Silahlı Qüvvələrinin Küveytdə Statusuna dair Saziş imzalanmış, 14 avqust tarixində isə AR-ın 150 nəfərdən ibarət sülhməramlı qüvvələri Küveytə yola düşmüşdür.
**2004-cü ilin 04-07 avqust tarixlərində** Küveytin Vəqflər və İslam İşləri Naziri Abdullah Mətuq Əl-Mətuqun başçılıq etdiyi nümayəndə heyəti Qafqaz Müsəlmanları İdarəsinin dəvətinə əsasən Respublikamızda fəaliyyət göstərən islam təşkilatlarını ziyarət etmək məqsədilə Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər zamanı A.Əl-Mətuq Azərbaycan Milli Məclisinin Sədri, Xarici İşlər Naziri və Respublikanın digər rəsmiləri ilə ilə görüşmüş, Azərbaycan-Küveyt əməkdaşlığı ilə bağlı bir sıra məsələlər ətrafında müzakirələr aparmışdır.
Azərbaycan Prezidentinin **01 sentyabr 2004-cü il tarixli, 371 saylı Sərəncamı** ilə Şahin Şakir oğlu Abdullayev Azərbaycanın Küveytdə Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilmişdir.
Küveyt Vəqflər və İslam İşləri Nazirinin müavini Adil Abdullah Əl-Fələh Azərbaycana səfər edərək, **2004-cü ilin 03 dekabr tarixində** Azərbaycan Xarici İşlər Nazirinin müavini V.Sadıqovla görüşmüşdür. Görüşdə Azərbaycan-Küveyt əməkdaşlığı məsələləri müzakirə olunmuşdur.
**2005-ci ilin 15-18 yanvar tarixlərində** Azərbaycan kütləvi informasiya vasitələrinin nümayəndələrindən ibarət heyət (AZ TV-nin “Səhər” proqramı, “Zerkalo”, “525” qəzetlərinin baş redaktorları, “Respublika” qəzetinin baş redaktorunun müavini və AzərTAc-ın əməkdaşı) Küveytdə səfərdə olmuş, ölkənin bir neçə nazirlik və KİV rəhbərləri ilə görüşlər keçirmişdir.
Azərbaycan Gənclər, İdman və Turizm Nazirliyinin nümayəndə heyəti ölkəmizin turizm potensialını nümayiş etdirmək üçün 2005-ci ilin 26-29 aprel tarixlərində Küveytdə keçirilmiş “KİF” Beynəlxalq turizm sərgisində iştirak etmişdir.
**2005-ci ilin may** ayında Ərəb iqtisadi inkişafı üzrə Küveyt fondunun nümayəndələri Kürdəmir-Ucar yolunun tikintisi layihəsinin maliyyələşdirilməsi məqsədilə Bakıya səfər etmişlər.
**2005-ci ilin 13-15 may tarixlərində** Azərbaycan İqtisadi İnkişaf Nazirinin müavini M.Cabbarovun başçılıq etdiyi Azərbaycanın iş adamlarından ibarət nümayəndə heyəti Küveyt Ticarət və Sənaye Nazirliyi və Ticarət və Sənaye Palatasının dəvətinə əsasən

Küveytdə səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan nümayəndə heyətinin başçısı Küveytin Ticarət və Sənaye Naziri, Maliyyə Nazirinin müavini, Ticarət və Sənaye Palatasının Baş Direktoru və digər Küveyt rəsmiləri ilə görüşmüş, iki ölkə arasında iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə olunmuşdur. Azərbaycanın İqtisadi İnkişaf Naziri tərəfindən Küveytin Ticarət və Sənaye Nazirinə və Ticarət və Sənaye Palatasının Sədrinə ünvanlanmış Azərbaycana səfərə dəvət məktubları Küveyt tərəfinə təqdim olunmuşdur.

Küveytin Türkiyə Respublikasında, eyni zamanda Azərbaycanda akkreditə olunmuş Səfiri A.Ə.Əl-Düveyx etimadnamə məktubunun surətinin təqdim edilməsi məqsədilə **27 iyun 2005-ci il tarixində** Azərbaycanın Xarici İşlər Naziri tərəfindən qəbul edilmişdir.

**2005-ci ilin 12-17 iyul tarixlərində** Küveyt İnformasiya Nazirinin turizm məsələləri üzrə müavini Nəbilə Mübarək Əl-Ancəri Azərbaycan Gənclər, İdman və Turizm Nazirinin müavini T.Mehdiyevin dəvətinə əsasən Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər zamanı N.M.Əl-Ancəri Azərbaycanın Gənclər, İdman və Turizm Naziri, Xarici İşlər Nazirinin müavini M.Məmməd-Quliyev, Mədəniyyət Nazirinin müavini S.Məmmədəliyeva, Prezident Aparatının Humanitar siyasət şöbəsinin müdiri ilə görüşmüşdür. Eyni zamanda Küveyt rəsmisi Qadınlar Şurasında görüş keçirmiş, Heydər Əliyev Fondunu ziyarət etmiş, Respublikanın turizm imkanları ilə yaxından tanış olmuşdur.

**2005-ci ilin 21-24 sentyabr tarixlərində** Küveytin Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvlərindən ibarət nümayəndə heyəti Azərbaycan Milli Məclisinin Sədrinin dəvətinə əsasən Azərbaycanda səfərdə olmuşdur. Səfər zamanı Küveyt nümayəndə heyəti Azərbaycan Milli Məclisinin Sədri, İqtisadi İnkişaf Naziri, Xarici İşlər Naziri tərəfindən qəbul olunmuşdur. Eyni zamanda nümayəndə heyəti Azərbaycan Milli Məclisinin daimi komissiyalarının bir sıra üzvü, İdman, Gənclər və Turizm Nazirliyinin Turizm departamentinin rəisi ilə görüşmüşdür.

**2005-ci ilin noyabr ayında** Maliyyə Nazirinin maliyyə və vergilər üzrə müavini Fövzi Süleyman Əhməd Əl-Qassarın başçılığı ilə Küveyt Maliyyə Nazirliyinin nümayəndə heyəti "Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş" layihəsinin müzakirəsi məqsədilə Azərbaycanda səfərdə olmuşdur. 10-11 noyabr tarixlərində aparılmış danışıqlar zamanı layihənin bütün müddəaları razılaşdırılmışdır. Danışıqların nəticələrinə görə layihənin razılaşdırılmış mətni nümayəndə heyətlərinin başçıları (Azərbaycan tərəfindən Vergilər Nazirliyi Beynəlxalq əlaqələr idarəsinin rəisi İ.Əkbərli) tərəfindən paraflanmış və memorandum imzalanmışdır.

**2005-ci ilin 22-23 noyabr tarixlərində** Küveytin Maliyyə Naziri, İnvestisiyalar üzrə Ali Şuranın Sədri Bədr Nəsir Əl-Humeydinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Baş Nazirinin müavini A.Şərifovun və Maliyyə Nazirinin dəvətlərinə əsasən Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər zamanı B.Əl-Humeydi Azərbaycan Prezidenti tərəfindən qəbul olunmuş, Baş Nazir, Baş Nazirin müavini A.Şərifov, Maliyyə Naziri ilə görüşmüşdür. Azərbaycan Prezidenti ilə görüş zamanı Küveyt

Əmirinin Küveytə səfərə dəvət məktubu yüksək ünvan sahibinə təqdim edilmişdir. Görüşlər zamanı iqtisadi-ticarət əməkdaşlığının inkişafı, Azərbaycan iqtisadiyyatına investisiyaların qoyulması imkanları barədə müzakirələr aparılmışdır.

**2005-ci ilin 11-14 dekabr tarixlərində** Azərbaycanın Gənclər, İdman və Turizm Naziri Ə.Qarayev Küveytin İnformasiya Nazirinin dəvətinə əsasən Küveytdə rəsmi səfərdə olmuşdur. Səfər zamanı Ə.Qarayev Küveytin Baş Naziri, Milli Məclisinin Sədri tərəfindən qəbul olunmuş, Küveyt Əmiri Aparatının Naziri (icra aparatının başçısı), İnformasiya Naziri, İdman və Gənclər Komitəsinin Baş Direktoru, Sənaye və Ticarət Palatası Sədrinin müavini ilə görüşmüş, Küveyt Milli Məclisinin sessiyasında iştirak etmiş, Sənaye və Ticarət Palatasında geniş tərkibdə iş adamları, bir neçə nüfuzlu turist şirkətləri ilə görüşlər keçirmiş, Küveyt televiziyasına geniş müsahibə vermişdir. Görüşlər zamanı ölkə arasında turizm sahəsində əməkdaşlıq imkanları, gələcək perspektivləri müzakirə olunmuş, Azərbaycan Milli Məclisi Sədrinin Küveytli həmkarına ünvanlanmış məktubu ünvan sahibinə təqdim edilmiş, Küveyt İdman və Gənclər Komitəsinin Baş Direktoru Azərbaycana səfərə dəvət edilmişdir. 13 dekabr tarixində Ə.Qarayev və Küveytin İnformasiya Naziri tərəfindən "Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş" layihəsi paraflanmışdır.

**2006-cı ilin 17-18 yanvar tarixlərində** Azərbaycan Xarici İşlər Nazirinin müavini V.Sadıqovun başçılıq etdiyi nümayəndə heyəti Küveyt Əmiri Şeyx C.Əl-Sabahın 2006-cı ilin 15 yanvar tarixində vəfatı ilə bağlı başsağlığının təqdim edilməsi mərasimində iştirak etmək üçün Küveytdə səfərdə olmuşdur.

**2006-cı ilin 01-02 mart tarixlərində** Azərbaycan Respublikası Təhsil Nazirliyi Küveyt Dövləti Vəqflər və Dini İşlər Nazirliyi və Beynəlxalq İslam Xeyriyyə Təşkilatı ilə birlikdə Bakıda "İslam və gənclik: təhsil, elm və maariflənmə" adı altında beynəlxalq elmi-praktik konfrans keçirmişdir.

Küveytin İslam işləri və Vəqflər Nazirinin I müavini Dr. Adil Ə-Fəlah **28.02-04.03.2006-cı il tarixlərində** Küveytin adı çəkilən Nazirliyi, Asiya Müsəlmanları Komitəsi və Azərbaycan Respublikası Təhsil Nazirliyi, eləcə də Heydər Əliyev Fondunun iştirakı ilə 2006-cı ilin 01-02 mart tarixlərində Bakıda keçirilmiş "İslam və gənclik: təhsil, elm və maariflənmə" adı altında beynəlxalq elmi-praktik konfransda iştirak etmiş və səfər zamanı Azərbaycan Respublikası Xarici İşlər Naziri E.Məmmədyarov ilə də görüşmüşdür.

Küveyt Dövləti Hesablama Bürosunun sədrinin dəvəti ilə **2006-cı ilin 4-8 mart tarixlərində** AR Hesablama Platasının sədri Namiq Nəsrullayev Küveytdə səfərdə olmuşdur.

**2006-cı ilin 9-13 may tarixlərində** Küveyt İnformasiya Nazirinin I müavini Şeyx Feysəl Xəlifə Əl-Məlik Əl-Sabahın başçılıq etdiyi Küveyt nümayəndə heyəti Azərbaycanda səfərdə olmuş, səfər zamanı Mədəniyyət və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi və Xarici İşlər Nazirliyində görüşlər keçirmişdir.

**2006-cı ilin aprel ayında** Küveyt Dövləti iqamətgahı Bakıda olmaqla Səfirliyin açılmasına dair qərar qəbul etmişdir və bu vəzifəyə Fəhd Saad Əl-Meyinin namizədliyi irəli sürülmüşdür.
**2006-cı ilin 24 noyabr tarixində** Küveytin Azərbaycanda təyin olunmuş Fövqəladə və səlahiyyətli səfiri F.Əl-Mey etimadnamələrinin surətini Xİ Naziri E.Məmmədyarova təqdim etmişdir.
**2006-cı ilin 14 dekabr tarixində** Küveyt səfiri etimadnamələrini Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyevə təqdim etmişdir.
**2006-cı ilin 30-31 may tarixlərində** AR sabiq İqtisadi İnkişaf naziri H.Babayev İslam İnkişaf Bankının illik toplantısında iştirak etmək məqsədilə Küveyt Dövlətində səfərdə olmuşdur. Səfər zamanı H.Babayev İİB-nın prezidenti Əhməd Məhəmməd Əli, Küveytin Maliyyə naziri Bədr Məşəri Əl-Humeydi, İnvestisiyalar üzrə Ali Şuranın baş direktoru Əbdülvahab Əl-Bədrlə görüşlər keçirmişdir.
**2006-cı ilin 19-21 noyabr tarixlərində** Küveytdə İKT Ali təhsil və elmi tədqiqat nazirlərinin 3-cü konfransında AR Təhsil Naziri M.Mərdanovun başçılıq etdiyi nümayəndə heyəti iştirak etmişdir.
**3-7 dekabr 2006-cı il tarixlərində** AR Baş Nazirinin müavini, Qaçqınlar və Məcburi Köçkünlərlə iş üzrə Dövlət Komitəsinin Sədri Ə.Həsənov Küveyt Dövlətinin Ədliyyə, vəqflər və İslam işləri Naziri Abdullah Mətuq Əl-Mətuqun dəvətilə Küveytdə səfərdə olmuşdur.
**20-21 yanvar 2007-ci il tarixlərində** Azərbaycan Respublikasının Xarici İşlər Naziri E.Məmmədyarov Küveyt Dövlətində rəsmi səfərdə olmuşdur. E.Məmmədyarov, rəsmi səfəri çərçivəsində, Küveyt Dövlətinin Əmiri Şeyx Sabah Əl-Əhməd Əl-Cabir Əl-Sabah, Küveyt Dövlətinin Baş Naziri Şeyx Nasir Əl-Məhəmməd Əl-Əhməd Əl-Sabah, Parlamentin Sədri Casim Əl-Xərrafi, Baş Nazirin müavini və Xarici İşlər Naziri Şeyx Məhəmməd Sabah Əl-Səlim Əl-Sabah, Ədliyyə, Vəqflər və Dini İşlər Naziri Abdulla Mətuq Əl-Mətuq, Ərəb iqtisadi inkişafı üzrə Küveyt Fondunun sədr müavini Hişam Əl-Uqeyyan ilə görüşlər keçirmişdir.
Səfər zamanı "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Küveyt Dövlətinin Xarici İşlər Nazirliyi arasında ikitərəfli məsləhətləşmələrə dair Anlaşma memorandumu" imzalanmışdır.
**18-21 fevral 2007-ci il tarixlərində** Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Naziri E.Mahmudov Küveyt Dövlətində rəsmi səfərdə olmuşdur.
**20-22 may 2007-ci il tarixlərində** Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri H.Hüseynova Küveytin Qadın işləri üzrə Komitəsinin sədri Lətifə əl-Fəhd əs-Səlim əs-Sabahın dəvəti ilə "Ərəb qadını günü"nə həsr olunmuş "Ərəb qadını XXI əsr: problemlər və perspektivlər" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün Küveytə səfər etmişdir.
**7-8 iyun 2007-ci il tarixlərində** Küveyt Dövləti Baş Nazirinin müavini və Xarici İşlər Naziri Şeyx Məhəmməd Sabah əs-Səlim əs-Sabah Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər zamanı küveytli nazir Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyev və Xarici İşlər Naziri E.Məmmədyarovla görüşmüşdür.

**21-24 oktyabr 2007-ci il tarixlərində** Küveyt-Azərbaycan Parlamentlərarası dostluq qrupunun Azərbaycan Respublikasına səfəri həyata keçirilmişdir. Səfər zamanı küveytli deputatlar AR Milli Məclisinin spikeri O.Əsədov, Xarici İşlər Naziri E.Məmmədyarov, İqtisadi İnkişaf Naziri H.Babayev, Sənaye və Energetika Naziri N.Əliyev, Gənclər və İdman Naziri A.Rəhimov, habelə azərbaycanlı həmkarları ilə görüşlər keçirmişlər.
**2007-ci il 22-23 oktyabr tarixlərində** Bakıda İslam Konfransı Təşkilatına üzv ölkələrin hüquq-mühafizə orqanları rəhbərlərinin konfransına hazırlıq məqsədilə ekspertlər səviyyəsində keçirilmiş görüşdə Küveytin Azərbaycandakı səfirliyinin Müşaviri Fayiz əl-Casim və Küveyt Daxili İşlər Nazirliyinin nümayəndəsi Mürşid əl-Azmi iştirak etmişlər.
**2008-ci ilin 3-5 fevral tarixlərində** Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini, Diplomatik Akademiyanın rektoru H.Paşayev Küveyt Diplomatiya İnstitutunun rektoru Əbdüləziz əş-Şərixin dəvəti ilə Küveytdə səfərdə olmuşdur. Səfər zamanı H.Paşayev Küveyt Əmiri Divanının işləri üzrə Nazir Şeyx Nasir əs-Sabah əl-Əhməd əs-Sabah, Xarici İşlər Nazirin müavini X.Cərullah və Diplomatiya İnstitutunun rektoru Ə.əş-Şərixlə görüşmüşdür.
**2008-ci ilin 24-30 iyun tarixlərində** Küveyt Dövləti Əmirinin Divan İşləri Üzrə naziri Şeyx Nasir Sabah əl-Əhməd  əs-Sabahın başçılıq etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdə olmuşdur.
**2009-cu ilin 10-11 fevral tarixlərində** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Küveyt Dövlətinə rəsmi səfər etmişdir. Prezident İlham Əliyevi təyyarənin pilləkəni yanında Küveyt Dövlətinin əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah, Küveyt vəliəhdi şeyx Nəvvaf əl-Əhməd əs-Sabah, Milli Məclisin sədri Casim Məhəmməd əl-Xərafi, Baş nazir şeyx Nasir əl-Məhəmməd əl-Əhməd əs-Sabah və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşılamışlar.
Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda –“Bəyan” sarayında Küveyt Ticarət və Sənaye Palatası idarə heyətinin sədri Əli Məhəmməd Sünayən əl-Ğənim, Küveyt Milli Məclisinin sədri Casim Məhəmməd əl-Xərafi, Küveyt Dövlətinin Baş naziri şeyx Nasir əl-Məhəmməd əl-Əhməd əs-Sabah  ilə görüşmüşdür.
“Bəyan” sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Küveyt Dövlətinin əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın görüşü olmuşdur. Görüşdə iki ölkə arasında münasibətlərin inkişaf etdiyi, siyasi əlaqələrin yüksək səviyyədə olduğu bildirilmiş, Azərbaycanla Küveyt arasında iqtisadiyyat, ticarət, turizm, investisiya sahələrində əlaqələrin inkişaf etdirilməsindən söhbət açılmışdır. Dövlət başçıları beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparmışlar. Görüş başa çatdıqdan sonra Azərbaycan Prezidentinin və Küveyt Dövləti əmirinin yüksək dövlət ordenləri ilə qarşılıqlı təltif edilməsi mərasimi olmuşdur. Əmir şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah Prezident İlham Əliyevə ölkəsinin ən ali mükafatı olan “Mübarək əl-Kəbir” ordenini, Prezident İlham Əliyev isə Əmir şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabaha Azərbaycanın ali mükafatını - “Heydər Əliyev” ordenini təqdim etmişdir. Ali dövlət mükafatlarının təqdim edilməsindən sonra “Bəyan” sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Küveyt Dövlətinin əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın

iştirakı ilə sənədlərin imzalanması mərasimi olmuşdur. Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında

1.“Əməkdaşlığa dair Müştərək Komissiyanın yaradılması haqqında saziş”i Azərbaycan tərəfdən Xarici İşlər Naziri Elmar Məmmədyarov, Küveyt tərəfdən Baş nazirin müavini və Xarici Işlər Naziri Məhəmməd Sabah əl-Səlim əs-Sabah,

2. “Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında saziş”i Azərbaycan tərəfdən Iqtisadi Inkişaf Naziri Şahin Mustafayev, Küveyt tərəfdən Maliyyə Naziri Mustafa Casim əl-Şimali,

3. “Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında saziş”i Azərbaycan tərəfdən Vergilər Naziri Fazil Məmmədov, Küveyt tərəfdən Maliyyə Naziri Mustafa Casim əl-Şimali,

4. “Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında ticarət sazişi”ni Azərbaycan tərəfdən İqtisadi İnkişaf Naziri Şahin Mustafayev, Küveyt tərəfdən Ticarət və Sənaye Naziri və Milli Məclis işləri üzrə Dövlət Naziri Əhməd Yaqub Bağır əl-Abdullah,

5. “Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında sazişi”ni Azərbaycan tərəfdən Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayev, Küveyt tərəfdən Ticarət və Sənaye Naziri və Milli Məclis işləri üzrə Dövlət Naziri Əhməd Yaqub Bağır əl-Abdullah imzaladılar.

Bəyan” sarayında Küveyt Dövlətinin Əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilmiş, Prezident İlham Əliyev və Küveyt Dövlətinin Əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah arasında qısa görüş olmuşdur.

Əl-Küveyt beynəlxalq hava limanında Azərbaycan Prezident İlham Əliyevi Küveyt Dövlətinin əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah və ölkənin digər rəsmi şəxsləri böyük hörmət və ehtiramla yola salmışlar.

**2009-cu ilin 21-22 aprel tarixlərində** İslam Konfransı Təşkilatının (İKT) üzvü olan ölkələrin hüquq mühafizə orqanlarının rəhbərlərinin Bakıda keçirilən ikigünlük ilk konfransında Küveyt Azərbaycandakı səfiri Fayez Mişari əl-Casim tərəfindən təmsil edilmişdir. Konfrans Bakı bəyannaməsinin qəbulu ilə başa çatmışdır.

**2009-cu ilin 30 iyul tarixində** Azərbaycan Respublikasının prezidenti İlham Əliyev küveytin ölkəmizdəki səfiri Fəhd Saad əl-Meyi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdi.

**2009-cu ilin 18 avqust tarixində** Küveyt tərəfindən Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında əməkdaşlığa dair Birgə Komissiyanın yaradılması təsdiq edilmişdir.

**2009-cu ilin 16 noyabr tarixində** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Küveytin Azərbaycanda yeni təyin olunmuş Fövqəladə və səlahiyyətli səfiri Gəssan Əbdülbari əl-Zəvavini etimadnamələrini təqdim etməsi ilə əlaqədar qəbul etmişdir.

**2009-cu ilin 22-24 noyabr** tarixlərində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Naziri Hüseynqulu Bağırov Küveytin Elektrik və Su Naziri Bədr Şəbib Əl-Şərianın dəvəti ilə Küveytə rəsmi səfər etmişdir.
**2009-cu ilin 16-19 dekabr tarixlərində** Bakıda Küveytin mədəniyyət günləri keçirilmişdir. Mədəniyyət Günlərində Küveytin elm və incəsənət xadimlərindən ibarət böyük nümayəndə heyəti iştirak etmişdir.
**2010-cu ilin 24-27 yanvar tarixlərində** Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Sədri xanım Hicran Hüseynova Küveyt Dövlətinin Qadın Komitəsinin Sədri Şeyxə Lətifə Əl-Sabahın dəvəti ilə Küveytdə səfərdə olmuşdur.
**2010-cu ilin 3-9 fevral tarixlərində** AR Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Küveytin "LoYAC – Lothan Youth Achievement Center" təşkilatının 14 nəfərdən ibarət nümayəndə heyəti Azərbaycana tanışlıq məqsədilə səfəri etmiş və qonaqlar Azərbaycan-Küveyt dostluq qrupu tərəfindən Milli Məclisdə qəbul edilmişlər.
**2010-cu ilin 8 fevral tarixlərində** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında əməkdaşlığa dair Müştərək Komissiyanın tərkibi təsdiq edilmişdir.
**2010-cu ilin 15 mart tarixlərində** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2010-cu il yanvarın 26-da əl-Küveyt şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Qadın, uşaq və ailə məsələləri sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilmişdir.
**2010-cu ilin 21-26 fevral tarixlərində** Küveyt informasiya Nazirliyinin dəvəti ilə AR XİN informasiya idarəsinin, "İctimai Televiziya"nın, "Trend" xəbər agentliyinin və "Day.az" internet portalının əməkdaşlarından ibarət nümayəndə heyəti Küveyt Dövlətində səfərdə olmuşdur.
**2010-cu ilin 11-17 aprel tarixlərində** Küveytin Gənclər və İdman məsələləri üzrə dövlət komitəsinin sədri general Feysəl Cəzzaf AR Gənclər və İdman Nazirli A. Rəhimovun dəvəti ilə Azərbaycanda səfərdə olmuşdur. Səfər zamanı "Azərbaycan Respublikası hökuməti və Küveyt Dövləti hökuməti arasında idman və gənclər sahələrində əməkdaşlıq haqqında Saziş" imzalanmışdır.
**2010-cu ilin 17-21 aprel tarixində** Küveyt Millət Məclisinin qadın deputatlarından ibarət nümayəndə heyəti AR Milli Məclisinin vitse-spikeri B. Muradovanın dəvəti ilə Azərbaycanda səfərdə olmuşdur.
**2010-cu aprelin 16-da** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında İdman və gənclər sahələrində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Sərəncam imzalanmışdır.
**2010-cu ilin may ayında** Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən Küveytin İslam işləri və vəqf nazirinin müavini Adel Abdulla Əl-Fələhin "Dostluq" ordeni ilə təltif edilmişdir.

**2010-cu ilin 12-15 iyun tarixində** Küveyt Millət Məclisinin dəvəti ilə Azərbaycan-Küveyt Parlamentlərarası Dostluq Qrupunun millət vəkili Əkrəm Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti Küveytdə səfərdə olmuşdur.
**2010-cu ilin 23-24 iyun tarixlərində** Bakıda keçirilən İslam İnkişaf Bankının Müdirlər Şurasının 35-ci illik toplantısında Küveytin Maliyyə naziri Mustafa əl-Şimali iştirak etmişdir. Azərbaycan Prezidentinin **24 iyun 2010-cu il tarixli Sərəncamı** ilə Tural Anar oğlu Rzayev Azərbaycanın Küveytdə Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilmişdir.
**2010-cu ilin 24-27 oktyabr tarixlərində** Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Sədri cənab Hidayət Orucov Küveyt Dövlətinə səfəri etmişdir.
**2011-ci ilin 10 – 11 yanvar tarixlərində** Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlığa dair Birgə Komissiyanın Küveyt şəhərində ilk iclası keçirilmişdir.

## 5. Müqavilə-hüquq bazası

***Azərbaycan Respublikasının Küveyt Dövləti arasında imzalanmış sənədlərin siyahısı***

**1. Diplomatik əlaqələrin yaradılmas**ı haqqında Protokol
10 oktyabr 1994-cü il

**2.** Azərbaycan Respublikasının Küveyt Dövlətindəki **Hərbi Qüvvələrinin Statusuna dair** Saziş
03 iyun 2003-cü il

**3.** Azərbaycan Respublikası ilə Küveyt Ərəb İqtisadi İnkişaf Fondu arasında **Ələt Qazıməmməd yolunun yenidən qurulması işlərinə kredit ayrılması** barədə
“Borc Sazişi”. Bakı, 15 may 1997 Azərbaycan Respublikası Prezidentinin 585 saylı, 23 iyun 1997-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

**4.** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Küveyt Dövləti Xarici İşlər Nazirliyi arasında **ikitərəfli məsləhətləşmələrə dair** Anlaşma Memorandumu. Əl-Küveyt, 21 yanvar 2007 Azərbaycan Respublikası Prezidentinin 2042 saylı, 12 mart 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

**5.** Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında əməkdaşlığa dair **Müştərək Komissiyanın yaradılması** haqqında Saziş 10 fevral 2009-cu il.

**6.** Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında
**turizm** sahəsində əməkdaşlıq haqqında Saziş 10 fevral 2009-cu il.

**7.** Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında **ikiqat vergitutmanın aradan qaldırılması** üzrə əməkdaşlıq haqqında Saziş. 10 fevral 2009-cu il.

**8**. Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında **investisiyaların təşviqi və qorunması** sahəsində əməkdaşlığa dair Saziş. 10 fevral 2009-cu il.

**9.** Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında **ticarət** Sazişi. 10 fevral 2009-cu il.

**10.** "Azərbaycan Respublikası hökuməti və Küveyt Dövləti hökuməti arasında idman və gənclər sahələrində əməkdaşlıq haqqında Saziş" 16 aprel 2010-cu il

**11.** Azərbaycan Dövlət Telegraf Agentliyi (AzerTac) və Küveyt Xəbərlər Agentliyi (KUNA) arasında əməkdaşlıq haqqında Saziş. İmzalanmışdır.

**12.** Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında ailə, qadın və uşaq problemləri sahəsində Saziş. İmzalanmışdır.

**Küveyt-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupu**

1. deputat doktor Nasir Casim Əl-Sani – qrupun sədri
2. deputat doktor Valid Musaid Əl-Tabatabay – sədr müavini
3. deputat Əhməd Hacı Abdullah Lari
4. deputat doktor Cuman Əl-Hərbəş
5. deputat Ədnan Seyyid Əbdulsəmid
6. deputat Əli Saleh Əl-Umeyr
7. deputat Camal Əhməd Əl-Kəndəri
8. deputat Dueyc Xələf Əl-Şamməri

## 6. Tərcümeyi-hallar

**Küveyt Dövlətinin Əmiri əş-Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah**

**16 iyun 1929-cu il** Küveytdə anadan olmuşdur, orta təhsilini Küveytdə almış, təhsilini ev şəraitində tamamlamışdır
**1955 –** İctimai işlər və Əmək İdarəsində mətbuat və nəşriyyat bölməsinin rəisi
**17 yanvar 1962-ci il –** İrşad və İnformasiya Naziri

**28 yanvar 1963-cü ildən-20 aprel 1991-ci ilə kimi –** Xarici İşlər Naziri
**02 fevral 1971-ci ildən - 3 fevral 1975-ci ilə kimi –** Xarici İşlər Naziri vəzifəsinə əlavə olaraq İnformasiya Naziri vəzifəsini icra etmişdir
**16 fevral 1978-ci il –** Xarici İşlər Naziri vəzifəsinə əlavə olaraq Baş Nazirin müavini vəzifəsinə təyin edilmişdir
**09 fevral 1982-ci il –** Baş Nazirin müavini və Xarici İşlər Naziri vəzifələrinə əlavə olaraq İnformasiya Naziri vəzifəsinə təyin edilmişdir
**03 mart 1985-ci il –** Baş Nazirin müavini və Xarici İşlər Naziri vəzifələrinə yenidən təyin edilmişdir
**18 oktyabr 1992-ci il** – Baş Nazirin birinci müavini və Xarici İşlər Naziri vəzifələrinə təyin edilmişdir
**13 iyul 2003-cü il –** Baş Nazir vəzifəsinə təyin edilmişdir
**2006-cı il –** Küveyt Əmiri
Duldur, üç oğlu və bir qızı var. İngilis dilini bilir.

**Küveyt Dövlətinin Baş Naziri Şeyx Nasir əl-Məhəmməd əl-Əhməd əs-Sabah**

**1940-cı il** Küveytdə anadan olmuşdur. İbtidai və orta təhsilini Birləşmiş Krallığın Ali Təhsil Sertifikatına malik Küveyt Məktəbində almışdır
**1964 –** Cenevrə Universitetində Siyasi və İqtisadi Elmlər üzrə bakalavr dərəcəsi almışdır. Fransız, ingilis və fars dillərində səlis danışır
**1964 –** Xarici İşlər Nazirliyinin III katibi
**Oktyabr 1964 –** Küveytin BMT-dəki (Nyu-York) Daimi Nümayəndəliyinə təyin edilmişdir
**İyun 1965 –** Yenidən Xarici İşlər Nazirliyinə təyin edilmişdir
**1965 –** Xarici İşlər Nazirliyində Fövqəladə və Səlahiyyətli Nazir təyin edilmişdir
**1966 –** BMT-nin Cenevrədəki ofisində Küveyt nümayəndəsi kimi fəaliyyətə başlamış, 1966-cı ildə burada Küveyt Daimi Nümayəndəliyinin ilk inauqurasiyasını etmiş və həmin ildə Küveytin İsveçrə Konfederasiyasındakı ilk Səfiri təyin olunmuşdur
**oktyabr 1968 –** Küveytin İran İslam Respublikasındakı (non-resident ambassador) Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilmişdir
**1975-197 –** İranda Diplomatik Korpusun duayeni olmuşdur (həmin illər ərzində dünyada ən gənc duayen idi)
**may 1979 –** Xarici İşlər Nazirliyində işləmək üçün geri çağrılmışdır
**1979-1985-ci illər –** İnformasiya Nazirliyinin Katibi
**1985-1988-ci illər –** İnformasiya Naziri
**1988-1990-cu illər –** Sosial İşlər və Əmək Naziri
**1990-1991-ci illər –** Xarici İşlər üzrə Dövlət Naziri
**2005- ci ildə –** Baş nazir təyin olunmazdan əvvəl Əmir fərmanı ilə Əmir Divanı İşləri üzrə Nazir vəzifəsinə təyin edilmişdir
**28 may 2008-ci ildə –** Baş Nazir təyin edilmişdir.

**Küveyt Dövləti Baş Nazirinin müavini Xarici İşlər Naziri Şeyx Məhəmməd Sabah əl-Səlim əs-Sabah**

**Anadan olduğu tarix və yer:**10 oktyabr 1955-ci il, Küveyt
**Təhsil: 1978-ci il –** Klaremont MKKenna kolleci, iqtisadiyyat fakültəsi, humanitar elmlər üzrə bakalavr
**1985-ci il –** Harvard universiteti**,** iqtisadiyyat fakültəsi, fəlsəfə doktoru, humanitar elmlər üzrə magistr
**Əmək fəaliyyəti: 1987-93 –** Ali Planlaşdırma Şurasının İqtisadi məsələlər üzrə Komitəsinin Sədri
**1992 –** Küveyt-ABŞ Cəmiyyətinin İcraiyyə Komitəsinin təsisçi-üzvü
**yanvar 1993-cü il –** Küveyt Dövlətinin ABŞ-da Səfiri
**fevral 2001-ci il –** Xarici İşlər üzrə Dövlət Naziri
**iyul 2003-cü il –** Xarici İşlər Naziri
**fevral 2006-cı il –** Baş Nazirin müavini, Xarici İşlər Naziri
**28 may 2008-ci il –** Baş Nazirin müavini və Xarici İşlər Naziri vəzifələrinə yenidən təyin edilmişdir.
Evlidir, dörd övladı var. Ərəb və ingilis dillərini bilir.